

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 32 (21.184)

*17 fevral 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Ölkələrimiz arasında əlaqələrin bütün sahələri əhatə etdiyini bildirən Azərbaycan Prezidenti münasibətlərimizin möhkəmləndirilməsində müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev İran Prezidenti Həsən Ruhani ilə keçirdiyi görüşlər zamanı qəbul edilən qərarların önəmini qeyd etdi. Dövlətimizin başçısı İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin məhsuldar olacağına və əlaqələrimizin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Xarici İşlər naziri Məhəmməd Cavad Zərif ölkələrimiz arasında ikitərəfli əlaqələrin dərin tarixə malik olduğunu vurğuladı. O, İran-Azərbaycan münasibətlərinin qurulmasında Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin xidmətlərini böyük ehtiramla xatırladı. İranın Xarici İşlər naziri ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini ifadə etdi.

Görüşdə ölkələrimiz arasında regional təhlükəsizlik, terrorizmə qarşı mübarizə, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, enerji, nəqliyyat, müasir texnologiyalar, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da ATƏT-in Minsk qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

# Şərur rayonunun Kürkəndində kompleks quruculuq işləri aparılmışdır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Ölkəmizin inkişafı hərtərəflidir. Hər bir bölgə inkişaf edir, hər bir bölgədə insanların yaşayışı üçün lazım olan bütün məsələlər həllini tapır… Bu, gördüyümüz işlərin, qəbul edilmiş proqramların nəticəsidir".***

Dövlət proqramlarının uğurlu icrası muxtar respublikada da sosial-iqtisadi inkişafı təmin etmiş, quruculuq işləri geniş vüsət almış, kənd yaşayış məntəqələrində də şəhər rahatlığı yaradılmışdır. İstifadəyə verilən yeni sosial obyektlər kəndlərin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Kənd infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər Şərur rayonunu da əhatə etmiş, Kürkənddə yeni sosial obyektlər inşa olunmuşdur.




## Şərur şəhər-Kürkənd avtomobil yolu yenidən qurulmuşdur

Muxtar respublikanın kənd yaşayış məntəqələrində müasir yol şəbəkələrinin salınması əhalinin rahatlığına xidmət edir. Son illər Şərur rayonunda da bu istiqamətdə kompleks tədbirlər görülmüş, mövcud yol infrastrukturu tamamilə təkmilləşdirilmişdir.

Fevralın 16-da Şərur şəhər-Kürkənd avtomobil yolunun açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun yenidən qurulması münasibətilə sakinləri təbrik etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, kəndi rayon mərkəzi ilə birləşdirən 4,5 kilometrlik yol genişləndirilərək asfalt örtük salınmışdır. Yolboyu 2 selötürücü, 47 su keçidi tikilmiş, 1280 metrlik beton kanal, 158 metr daş hasar və 300 metr metal çəpər çəkilmişdir. Həmçinin müvafiq yerlərdə piyada keçidləri və digər yol hərəkət nişanları quraşdırılmış, avtomobillərin və piyadaların rahat hərəkəti təmin olunmuşdur.

## Kürkənd tam orta məktəbi yeni binada fəaliyyət göstərəcəkdir





Fevralın 16-da Kürkənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Məktəbin direktoru Yeganə Seyidova çıxış edərək demişdir ki, kəndlərə yeni görkəm, sakinlərə firavanlıq gətirən quruculuq tədbirlərindən Kürkəndə də pay düşmüşdür. Kənd məktəbi üçün yeni bina inşa olunmuş, maddi-texniki baza xeyli gücləndirilmişdir. Bütün bunlar müəllimləri daha məsuliyyətlə çalışmağa, şagirdləri isə yaxşı təhsil almağa ruhlandırır. Yeganə Seyidova yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kürkənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını və kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Məktəblərdə gənclər nə qədər yaxşı, hərtərəfli hazırlansalar, müstəqil Azərbaycanın gələcəyi də bir o qədər parlaq və müvəffəqiyyətli olacaqdır"*** fikrini xatırladaraq demişdir: "Bu gün məktəblərdə hazırlanan gənclər ölkəmizin sabahına xidmət edəcəklər. Ona görə də dövlətimiz tərəfindən gənclərin hərtərəfli hazırlanması istiqamətində müvafiq tədbirlər görülür, müasir tələblərə cavab verən məktəb binaları tikilərək istifadəyə verilir".

Ali Məclisin Sədri demişdir: "Müəllimlər bilməlidirlər ki, onlar ölkənin gələcəyini hazırlayırlar. Gənclərimiz də bilməlidirlər ki, onlar bu gələcəyin təminatçısı kimi yetişməlidirlər. Ona görə də hər bir gənc özünü bu gələcəyə hazırlamalı, yaxşı təhsil almalı, vətənpərvər böyüməlidir. Kürkənd tam orta məktəbində yaradılan şərait, pedaqoji kollektivdə bütün fənlər üzrə müəllimlərin fəaliyyət göstərməsi gənclərin yüksək təhsil almasına və onların hərtərəfli hazırlanmasına imkan verəcəkdir. Məktəbin ötən dövrdəki fəaliyyəti, qazandığı uğurlu nailiyyətlər onu deməyə əsas verir ki, məktəbdə tədris düzgün qurulmuşdur. Burada nizam-intizam, müəllim tələbkarlığı və şagird çalışqanlığı vardır".

*Ardı 2-ci səhifədə*





Ali Məclisin Sədri qazandıqları nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür etmiş, onlara gələcək tədrisdə uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 198 yerlik məktəb binasında 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter, şahmat və müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. Kürkənd tam orta məktəbinin kitabxanasında kollektivin istifadəsinə 3455 kitab verilmişdir. Həmçinin məktəbin elektron tədris bazası da gücləndirilmiş, 19 kompüter dəsti və 3 elektron lövhə quraşdırılmış, internetə çıxış təmin olunmuşdur. Bu da dərslərin daha effektiv tədrisinə imkan verəcəkdir.

Elektron lövhəli sinifdə muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi arasında videoəlaqə yaradılmış və distant dərs keçilmişdir. Muxtar respublikanın 217 təhsil müəssisəsi muzey şəbəkəsinə qoşularaq keçilən dərsi eyni vaxtda izləmişdir.

Ali Məclisin Sədri birinci sinif şagirdlərinin dərs prosesi ilə də maraqlanmışdır. Bildirilmişdir ki, 2014-2015-ci tədris ilində Kürkənd tam orta məktəbinin birinci sinfinə 12 şagird qəbul olunmuşdur. Sağlam və vətənpərvər gənc nəslin böyüdülməsi müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Məktəbin hərbi kabinəsi imkan verəcəkdir ki, ilkin hərbi hazırlıq dərsləri səmərəli tədris olunsun. İdman zalında da şagirdlərin fiziki hazırlıqlarının artırılması üçün hər cür şərait yaradılmışdır.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, məktəbdə müəllim-şagird nisbətinin uyğun olması tədrisin keyfiyyətinə müsbət təsir göstərmiş, ali məktəblərə qəbul imtahanlarında nailiyyətlər qazanılmışdır. Lakin kollektiv bu nailiyyətlərlə kifayətlənməməli, kəmiyyətlə bərabər, keyfiyyətə də diqqət yetirilməlidir. Bu gün ölkəmizdə təhsilə göstərilən qayğı, yaradılan şərait imkan verir ki, gənclər dünyanın istənilən universitetində ali təhsillərini davam etdirsinlər. Artıq muxtar respublikadan xarici ölkələrdə təhsil alan gənclərin sayı ilbəil artır. Kürkənd tam orta məktəbinin kollektivi də bu imkanlardan səmərəli istifadə etməli, təhsilli və vətənpərvər gənclər yetişdirilməlidir.

Məktəbin müəllimi Novruz İsmayılov minnətdarlıq edərək demişdir ki, Kürkənddə tikilən müasir məktəb binası gələcəyimizə göstərilən qayğıdan xəbər verir. Məktəbdə gənclərin yaxşı təhsil alması üçün hər cür şərait vardır. Bu da müəllimlərin üzərinə mühüm vəzifələr qoyur. Kollektiv bundan sonra da təhsilin səviyyəsinin yüksəldilməsi üçün əzmlə çalışacaqdır.

Məktəb binası müasir işıqlandırma və istilik sistemləri ilə təchiz olunmuş, fərdi qazanxana quraşdırılmışdır.

## Kürkənddə yeni kənd mərkəzi istifadəyə verilmişdir






Sakinlərin rahatlığına və dövlət qurumlarının səmərəli fəaliyyətinə təminat verən növbəti kənd mərkəzi Kürkənddə inşa olunmuşdur.

Fevralın 16-da kənd mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd mərkəzinin açılışını bildirən lenti kəsdikdən sonra binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, mərkəzdə rabitə evi, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, feldşer-mama, baytarlıq və polis sahə məntəqələri, kitabxana, mədəniyyət evi və 60 yerlik iclas zalı yerləşir.

Rabitə evində 384 yerlik yeni ATS quraşdırılmış, poçt şöbəsi yaradılmışdır. Bu da Kürkənddə xidmətin səmərəli təşkilinə imkan verəcəkdir. Hazırda sakinlər kommunal xidmət haqlarını poçt şöbəsi vasitəsilə asanlıqla ödəyirlər.

Mərkəzin birinci mərtəbəsində yerləşən kitabxana da zəngin fondu ilə seçilir. Burada 4722 kitab vardır. Baxış zamanı kitabxana işinin gücləndirilməsi, xüsusilə ədəbi-bədii gecələrin və kitab müzakirələrinin keçirilməsi barədə tapşırıqlar verilmişdir.

Yeni Azərbaycan Partiyası Kürkənd ərazi ilk təşkilatının 63 üzvü vardır. Onlardan 23-ü gənclər, 11-i isə qadınlardır.

Ali Məclisin Sədri kənddə baytarlıq xidmətinin təşkili ilə maraqlanmışdır.

Bildirilmişdir ki, 2015-ci ilin ölkəmizdə "Kənd təsərrüfatı ili" elan olunması baytarlar qarşısında da mühüm vəzifələr qoyur. Fərdi təsərrüfatlarda saxlanılan mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi və fermerlərin maarifləndirilməsi qarşıda duran əsas vəzifələrdəndir. Vaxtlı-vaxtında aparılan profilaktik tədbirlərin nəticəsidir ki, Kürkənddə heç bir xəstəlik qeydə alınmamışdır.

Feldşer-mama məntəqəsi də lazımi avadanlıqlar və dərman vasitələri ilə təmin edilmişdir. Mövcud şərait kənddə sakinlərin lazımi tibbi xidmətlə təmin olunmasına imkan verəcəkdir.

Binanın həyətində də geniş abadlıq işləri görülmüş, gülkarlıqlar salınmışdır.

## Kənddə yeni xidmət mərkəzi fəaliyyətə başlamışdır







Həmin gün Kürkənddə yeni xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını etmiş, xidmətin təşkili ilə maraqlanmışdır.

Bildirilmişdir ki, kəndlərdə tikilən yeni xidmət mərkəzləri insanların rahatlığına təminat verən müasir sosial obyektlərdir. Burada sakinlərə müxtəlif məişət xidmətləri göstərilir, sənaye və ərzaq mallarının satışı təşkil olunur. Kürkənddəki xidmət mərkəzində də bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları fəaliyyət göstərir. Mərkəzdə 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri kənd sakinləri ilə görüşmüşdür.

Ali Məclisin Sədri Kürkəndin muxtar respublikanın abad yaşayış məntəqəsinə çevrildiyini bildirmiş və bu münasibətlə sakinləri təbrik edərək demişdir: "Kənddə əhalinin rahat yaşaması üçün hər cür şərait yaradılmış, infrastruktur müasirləşdirilmişdir. Bu gün Kürkənddə yeni evlər tikilir, məskunlaşma artır.

*Ardı 3-cü səhifədə*

Bütün bunlar da dövlətimiz tərəfindən yaradılan şəraitin, insan amilinə verilən qiymətin nəticəsidir. Bu şəraitdən səmərəli istifadə etmək, tikilənləri qorumaq, kəndi daha da inkişaf etdirmək isə sakinlərin qarşısında duran əsas vəzifələrdir. Torpaqlar əkilməli, təsərrüfatlar genişləndirilməli, sakinlər öz zəhmətləri ilə nümunə göstərməlidirlər”. Ali Məclisin Sədri gələcəkdə də kəndin inkişafı istiqamətində ardıcıl tədbirlərin görüləcəyini qeyd etmiş, sakinlərə firavan həyat arzulamışdır.

Kənd əhalisi adından minnətdarlıq edən Fəxrəddin Həsənov demişdir ki, quruculuq və abadlıq işləri hər bir bölgənin inkişaf göstəricisidir. Son 20 ildə ümummilli lider Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi qədim Naxçıvanın simasını tamamilə dəyişmişdir. Bu gün muxtar respublikanın hansı yaşayış məntəqəsinə nəzər salırsansa, yeniləşmənin, böyük quruculuq işlərinin şahidi olursan. Kəndlərin inkişafı diqqətdə saxlanılır, geniş quruculuq işləri görülür. Artıq kəndlə şəhər arasında fərq yoxdur. İnsanlar rahat yaşayır, öz təsərrüfatları ilə məşğul olur, uşaqlar müasir məktəb binalarında təhsil alırlar. Kürkənddə də kompleks tədbirlər görülmüş, kənd yolu yenidən qurulmuş, məktəb binası tikilmiş, suvarma tədbirləri yaxşılaşdırılmışdır. Bu inkişaf və qayğı insanların torpağa bağlılığını artırmış, onların daha əzmlə çalışmasına səbəb olmuşdur.

* * *

Kürkənddə geniş abadlıq işləri də aparılmışdır. Belə ki, kəndin rabitə, elektrik və qaz təchizatı yaxşılaşdırılmış, 2980 metr fiber-optik, 8850 metr yerüstü, 1300 metr yeraltı rabitə və 1300 metr qaz xətti çəkilmiş, 2,5 kilometrlik elektrik xətti yenilənmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub



***Ötən il 378 obyektin yanğından icbari sığortalanmasına nəzarət olunub, sahibkarlarla izahat işləri aparılıb, əhalinin maarifləndirilməsi məqsədilə 179 obyektdə mülki müdafiə, fövqəladə hallardan qorunma və yanğın təhlükəsizliyi məsələləri ilə bağlı maarifləndirici tədbir keçirilib.***

Bu faktlar Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində ötən ilin yekunları və qarşıya qoyulmuş vəzifələrə həsr olunan kollegiya iclasında tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Kollegiya iclasında Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayev məruzə edərək bildirib ki, ötən il nazirliyin maddi-texniki bazasının gücləndirilməsi, kadr hazırlığının artırılması, tabelikdəki qurumların ən müasir texnika, xilasetmə ləvazimatları, xüsusi geyimlər, texniki vasitələr və cihazlarla təminatı diqqət mərkəzində saxlanılıb. Nazirliyin əməkdaşlarına müasir iş şəraitinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilib, Sədərək rayonunda Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası tikilib istifadəyə verilib, zabit və gizirlər üçün Naxçıvan şəhərində 7 mərtəbəli yeni xidməti yaşayış binasının tikintisi davam etdirilib.

2014-cü ildə istismara verilmiş 11 təhlükə potensiallı obyektin, 126 avadanlıq və qurğunun dövlət reyestrində qeydiyyata alındığını deyən nazir qeyd edib ki, ötən il 46 ədəd texnoloji nəqliyyat vasitəsinə dövlət nömrə nişanları və qeydiyyat şəhadətnamələri verilib, 32 müəssisədə 278 ədəd təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılıb. İstehsalatda bədbəxt hadisələrin baş verməməsi üçün 56 obyektdə texniki təhlükəsizlik üzrə əməli yoxlama keçirilib, yeni istifadəyə verilmiş 6 lift, 3 qülləli kran, 5 avtokran texniki təhlükəsizlik üzrə ekspertizadan keçirilib.

Qeyd olunub ki, mülki müdafiə məsələləri ilə bağlı 4 müəssisədə müxtəlif mövzular üzrə təlimlər, 4 nazirlikdə konfrans keçirilib, 25 mərkəzi icra hakimiyyəti orqanında, 146 təşkilatda və 43 təhsil müəssisəsində mülki müdafiə tədbirlərinin yerinə yetirilməsinə nəzarət edilib. Mülki müdafiə kursunda 12 kateqoriya üzrə 32 tədris qrupunda 945 nəfər dinləyici fövqəladə hallara hazırlanıb. Muxtar respublika ərazisində yeni tikilən və əsaslı təmir olunan inzibati və yaşayış binalarının zirzəmisinə baxış keçirilərək mühafizə obyekti kimi qeydiyyata alınıb, Şərur şəhərinin 2 yaşayış binasının və Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binasının zirzəmisi mülki müdafiə və səfərbərlik anbarı kimi hazırlanıb.

Bundan başqa, muxtar respublikada tikintisi başa çatdırılmış və davam etməkdə olan bina və qurğular qeydiyyata alınıb, tikintisi planlaşdırılan obyektlərin ərazisindən götürülmüş qrunt nümunələrinin analizi aparılıb. Obyektlərin layihələndirilməsi mərhələsində tikintisi layihələndirilən 65 obyektin layihə-smeta sənədləri ekspertizadan keçirilib. İşçi layihələrə müvafiq rəylər verilib. 642 sayda tikinti materiallarının sınaq və analizi keçirilib, həmçinin səyyar üsulla 301 sayda tikinti obyektində dəmir-beton konstruksiyalarda betonun naturada möhkəmliyi göstəricisi yoxlanılıb. İki tikinti obyektinə bina və qurğularda tikinti-quraşdırma işlərinin aparılması fəaliyyət növünə lisenziya verilib.

Bəhs olunan dövrdə qazla iş rejiminə keçirilmiş 659 ədəd qazanxananın yanğın təhlükəsizliyi yoxlanılıb, işçilər təlimatlandırılıblar. Neft sobaları ilə qızdırılan ümumtəhsil məktəblərində sobaların standartlara uyğun qurulması üçün izahat işləri aparılıb.

Taxıl biçini dövründə 35749,7 hektar sahədə əkilmiş taxılın təhlükəsiz yığılması üçün gündəlik olaraq 75-80 nəfər əməkdaş patrul xidmətinə cəlb olunub. Taxıl zəmilərində baş verə biləcək yanğınlara çevik müdaxilə edilməsi məqsədilə Şərur, Babək, Ordubad və Culfa rayonlarının əlverişli yerlərində əlavə yanğın avtomobillərinin növbəliliyi təmin edilib. Nazirliyin müvafiq qurumları tərəfindən muxtar respublikada əməliyyat şəraiti nəzarətdə saxlanılıb, qeydə alınan 14 yanğın hadisəsinin qarşısı vaxtında alınıb və söndürülməsi təmin edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində 2014-cü ildə görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.*

İclasda Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi Nizami Məmmədov çıxış edərək bildirib ki, əhalinin maddi rifah halının yaxşılaşması fərdi yaşayış evlərinin tikintisi üzrə müsbət meyilli dinamikanı daha da gücləndirib. 2014-cü ildə elektron xidmətlərin müasirləşdirilməsi və yeniləşdirilməsi sahəsində əldə edilən nailiyyətlərlə yanaşı, xidmətin digər fəaliyyət sahələrində də uğurlu nəticələrə nail olunub. Belə ki, 2014-cü il ərzində xidmətdə Daşınmaz Əmlakın Dövlət Reyestrinin bütün bölmələri üzrə 5173 əmlak üzərində yaranan hüquqların qeydiyyatı aparılıb. 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2014-cü ildə hüquqların qeydiyyatının sayı 115 ədəd çox olub.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası ərazisində yeni formalaşdırılan irihəcmli daşınmaz əmlak obyektlərinin, o cümlədən kommunikasiya xətlərinin və qurğularının, mühüm əhəmiyyətli dövlət və sosial infrastruktur obyektlərin inşası üçün nəzərdə tutulmuş ərazilərin kadastr planlarının tərtib olunması, onlardan çıxarışların verilməsi və bu məlumatların vahid dövlət kadastrı bazasına daxil edilməsi istiqamətində xeyli iş görülüb. Belə ki, il ərzində 3848 daşınmaz əmlaka dair məlumatlar kadastr xəritəsinə daxil edilib.

2014-cü ildə, bütövlükdə, xidmət üzrə əmlak üzərində yaranmış hüquqların dövlət qeydiyyatı üçün baza sənədi sayılan 2045 ədəd texniki sənəd hazırlanıb ki, bunun 788 ədədi torpaq sahələri üçün plan-ölçülər, qalan 1257-si isə müxtəlif növ əmlaklara dair texniki pasportlar olub.

Nizami Məmmədov işdə buraxılan nöqsanlara da toxunub, qarşıda duran vəzifələrdən danışıb.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev çıxış edib.

***Fevralın 14-də Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində ötən ilin yekunlarına və 2015-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.***



Kollegiya iclasını Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında informasiya və yeni texnologiyaların inkişafı istiqamətində həyata keçirilən tədbirlər 2014-cü ildə də uğurla davam etdirilib. Ötən il Naxçıvan şəhərində, Şərur və Sədərək rayonlarından sonra Şahbuz və Babək rayonlarında 3-cü nəsil telekommunikasiya sistemlərinin quraşdırılması başa çatdırılıb. Hazırda bu sistem mövcud telefon istifadəçilərinin 65 faizinə xidmət göstərir. Bundan əlavə, 242 kilometr uzunluğunda Ordubad-Sədərək alternativ fiber-optik magistral kabel xəttinin tikintisi yekunlaşdırılıb. Həyata keçirilən tədbirlər nəticəsində bu gün muxtar respublikanın yaşayış ərazilərinin 93 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidməti göstərilir. İnformasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində görülmüş ardıcıl tədbirlərin tərkib hissəsi kimi 2014-cü ildə “Elektron imza”nın sertifikat mərkəzi yaradılıb və “Elektron imza”nın tətbiqinə başlanılıb. Hazırda muxtar respublikanın bütün yaşayış ərazilərində sosial paketdə olan 12 televiziya kanalının rəqəmsal yayımı təmin edilir.

Qeyd olunub ki, 2014-cü il muxtar respublika rabitəçiləri üçün əlamətdar olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 sentyabr 2014-cü il tarixli Fərmanına əsasən, nazirliyin adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi adlandırılması, onun tərkibində yeni sahələrin yaradılması və əlavə ştat vahidləri ilə təminat, həmçinin Ali Məclis Sədrinin 9 iyul 2014-cü il tarixli Sərəncamı ilə İnternet Mərkəzinin və Kompüter Təlim-Tədris Mərkəzinin bazalarında Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin tabeliyində Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin yaradılması nazirliyin səlahiyyətlərini daha da genişləndirib. Bundan əlavə, “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 iyul 2011-ci il tarixli Fərmanının icrası davam etdirilib, “Golden Pay” şirkəti ilə bağlanmış müqaviləyə əsasən, “Elektron hökumət” portalı üzərindən real vaxt rejimində rabitə, genişzolaqlı internet xidməti, elektrik enerjisi və qaz haqlarının ödənilməsi təşkil olunub, istifadəçilərin portalda onlayn qeydiyyatdan keçməsi avtomatlaşdırılıb və portalın təhlükəsizliyi ilə əlaqədar tədbirlər görülüb.

“Naxtel”in inkişafında da mühüm irəliləyişlərin olduğunu bildirən Rövşən Məmmədov 2014-cü ildə Naxçıvan şəhərində əlavə EV-DO texnologiyasını dəstəkləyən baza stansiyası qurulduğunu, Naxçıvan şəhərini və ətraf əraziləri əhatə edən genişzolaqlı simsiz internet xidmətinin istifadəyə verildiyini deyib. Qeyd olunub ki, yeni avtomat telefon stansiyalarının istifadəyə verilməsi və “Naxtel”in əhatə dairəsinin genişləndirilməsi nəticəsində il ərzində 5420 yeni telefon nömrəsi istifadəyə verilib. 2014-cü ildə “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti və onun rayon filialları tərəfindən toplanan xidmət haqlarının həcmi 14 milyon 532 min 497 manat olub, nağdsız hesablaşmalar üçün POS-terminalların sayı 97-yə çatdırılıb. “Naxçıvanpoçt”un kompüter şəbəkəsinin genişləndirilməsi davam etdirilib, mövcud 151 poçt məntəqəsinin 122-də kompüter şəbəkəsi qurulub və bu işlər davam etdirilir.

Nazir bildirib ki, cari il yanvar ayının 14-də daha bir xidmət istifadəyə verilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə “BBTV” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında bağlanmış müqaviləyə və Televiziya və Radio Şurası tərəfindən televiziya yayımı fəaliyyətinə verilən xüsusi icazəyə əsasən, Duzdağ Radio-Televiziya Verici Stansiyasında test-sınaq işləri başa çatdırılan baş stansiya, 7 ədəd güclü rəqəmsal televiziya vericisi vasitəsilə Cənubi Qafqazda ilk dəfə tətbiq edilən DVB-T2 standartında 67 televiziya proqramı tamaşaçıların ixtiyarına verilib. Bu sistemin texniki imkanlarından istifadə olunaraq ölkəmizdə ilk olaraq Naxçıvan dövlət televiziyasının efirə yüksəkkeyfiyyətli HD formatında çıxışı təmin edilib. Eyni zamanda Naxçıvan şəhərində “Evədək optika” layihəsinin icrası nəticəsində 18 fərdi mənzilə və yeni tikilən 3 çoxmənzilli yaşayış binasına fiber-optik kabel xətləri çəkilib.

Rabitə və Yeni Texnologiyalar naziri 2015-ci ildə də qarşıya qoyulmuş vəzifə və tapşırıqların layiqincə yerinə yetiriləcəyini bildirib, bu tədbirlərin həyata keçirilməsində kollektivə uğurlar arzulayıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi məsələlər üzrə müşaviri Müslüm Cabbarzadə çıxış edib.

**Xəbərlər şöbəsi**

## Proqnoz tapşırığa artıqlaması ilə əməl edilib



***Ötən il özəl sektordan vergi daxilolmalarının ümumi vergi daxilolmalarında xüsusi çəkisi 2013-cü illə müqayisədə 2,8 faiz artaraq 63,3 faizədək yüksəlib. Bunu Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində keçirilən kollegiya iclasında Vergilər naziri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Əli Mahmudov deyib.***

Nazir bildirib ki, iqtisadi inkişafın nəticəsi olaraq, 2014-cü ildə nazirlik üzrə müəyyən olunmuş proqnoz 105,2 faiz icra edilib. Bu da 2013-cü illə müqayisədə 13,7 faiz çoxdur. Eyni zamanda yerli vergi orqanlarının hər biri üzrə müəyyən olunmuş proqnoza artıqlaması ilə əməl edilib.

Hesabat dövrü ərzində vergi ödəyiciləri tərəfindən 23053 bəyannamə təqdim edilib. Təqdim olunan bəyannamələr yoxlamadan keçirilərək 284 vergi ödəyicisinə kameral qaydada 60 min 644 manat əlavə hesablama aparılaraq ödənilməsi təmin edilib. Sahibkarlıq fəaliyyətinə başlamaq üçün prosedurların və vaxt itkisinin dəfələrlə azalmasına səbəb olan "bir pəncərə" prinsipinin tətbiqi nəticəsində 22 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına, 2796 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan sahibkarlıq subyektlərinin 89,5 faizi muxtar respublikanın rayonlarının payına düşüb.

2014-cü il ərzində Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən 138 operativ vergi nəzarəti tədbirləri həyata keçirilib, bu tədbirlər nəticəsində 17 min 878 manat inzibati cərimə və maliyyə sanksiyaları tətbiq edilib. Əldə edilən vəsaitin büdcəyə ödənilməsi təmin olunub. Nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində 1 yanvar 2015-ci il tarixə muxtar respublikanın ticarət və iaşə obyektlərinə 867 ədəd POS-terminal quraşdırılıb ki, bunun da 619 ədədi 2014-cü ildə tətbiq olunub. 2013-cü ilin dekabr ayında POS-terminallar vasitəsilə aparılmış alqı-satqı əməliyyatları 218 min 605 manat olduğu halda, 2014-cü ilin dekabr ayında bu göstərici artaraq 1 milyon 20 min 328 manat təşkil edib.

Qeyd olunub ki, 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş mexanizminin formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"na uyğun olaraq, hazırda muxtar respublikanın vergi sistemi üzrə bu xidmətlərin sayı 31-ə çatdırılıb.

Sonra Naxçıvan Muxtar Respublikası Vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Nurlan Əliyevin, Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi, baş vergi xidməti müşaviri Azər Nağıyevin, Şərur Rayon Vergilər Şöbəsinin rəisi, vergi xidməti müşaviri İlham Bədəlovun, Babək Rayon Vergilər Şöbəsinin rəisi, vergi xidməti müşaviri Səftər Əliyarovun çıxışları olub.

## Neft və qaz məhsullarına olan tələbat tam ödənilib



***Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində 2014-cü ildə görülən işlərə və 2015-ci ildə qarşıya qoyulan vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.***

Yığıncağı müəssisənin direktoru Behruz Əzimov açaraq məruzə ilə çıxış edib.

Qeyd olunub ki, 2014-cü ildə muxtar respublika əhalisinin, təşkilat və müəssisələrin neft və maye qaz məhsullarına olan tələbatını ödəmək məqsədilə müəssisə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin müəssisələri ilə bağlanmış müqaviləyə əsasən, 31 min 262,2 ton A-92 benzini, 1983,7 ton A-95 benzini, 34 min 216,5 ton dizel yanacağı, 13 min 659,8 ton bitum, 5726,9 ton mazut, 244,2 ton müxtəlif növ yağlar, 2824,6 ton maye qaz alıb.

Bildirilib ki, ötən il müəssisə tərəfindən ümumi dövriyyəsi 59274,2 min manat olan 91 min 230,6 ton müxtəlif növ neft məhsulları satılıb ki, bu, 34 min 481,6 ton avtobenzin, 37 min 870,5 ton dizel yanacağı, 13 min 659,8 ton bitum, 2206,9 ton mazut, 2767,6 ton maye qaz, 244,2 ton müxtəlif növ yağlardan ibarət olub. 2014-cü ildə müəssisə satışdan 94,4 min manat mənfəət əldə edib.

1 yanvar 2015-ci il tarixə müəssisənin anbarlarında 2136,6 ton A-92 benzini, 42,6 ton A-95 benzini, 2753,1 ton dizel yanacağı, 3520,0 ton mazut, 57,0 ton maye qaz ehtiyatı vardır.

Müəssisənin rəhbəri 2015-ci ildə qarşıda duran vəzifələrdən, bu vəzifələrin yerinə yetirilməsinin vacibliyindən də danışıb.

Məruzə ətrafında müzakirələrdə müəssisənin neft məhsulları üzrə anbar müdiri Mirmehdi Seyidov, qaz məhsulları üzrə anbar müdiri Kazım Rzayev çıxış ediblər.

## Rayon İcra hakimiyyətlərində müşavirələr keçirilib



Şərur rayonunda keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov çıxış edib. Qeyd olunub ki, 2014-cü ildə rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 72 milyon 605,4 min manat investisiya yönəldilib, tikinti-quraşdırma işlərinə sərf olunmuş investisiyanın həcmi 67 milyon 241,1 min manat olub. Hesabat dövründə Şərur şəhərində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Şərur Rayonlararası Müayinə Mərkəzinin, Şərur Rayon Texniki-Peşə və Sürücülük Məktəbinin binaları tikilib, Əl Topu Oyunları idman meydançası, "Naxçıvanbank" ASC-nin Şərur rayon filialı, Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik və rayon Məşğulluq Mərkəzinin inzibati binaları, üç yaşayış binası əsaslı təmir olunub. Tikinti-quruculuq işləri bununla məhdudlaşmır. Dizə, Püsyan kəndlərində kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları inşa olunub, məktəb binaları yenidən qurulub. Diyadin kəndində kənd mərkəzi, məktəb binası, xidmət mərkəzi tikilib, Axura kəndində həkim ambulatoriyası, məktəb binası, kənd mərkəzi əsaslı təmir edilib, xidmət mərkəzi tikilib. Sosial qayğıya ehtiyacı olan ailələr üçün Çomaxtur kəndində iki, Axura kəndində isə bir yaşayış evi inşa olunub.

Vurğulanıb ki, 2014-cü ildə "Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyaları istifadəyə verilib, Çomaxtur kəndində meyvə-tərəvəz qurudulması sahəsi, Şərur şəhərində, Mahmudkənddə, Muğanlı və Kərimbəyli kəndlərinin hər birində bir quşçuluq təsərrüfatı, Qarxun kəndində istixana kompleksi, Zeyvə kəndində qarışıq qüvvəli yem istehsalı sahəsi, Diyadin, Dizə, Axura, Danyeri və Çərçiboğan kəndlərinin hər birində bir heyvandarlıq təsərrüfatı yaradılıb.

Bundan başqa, Axura, Püsyan, Dizə kəndlərində avtomobil yollarına asfalt örtük salınıb, Püsyan-Xanlıqlar avtomobil yolunun yenidən qurulması başa çatdırılıb.

Bildirilib ki, keçən il fermerlərin uğurları əvvəlki illərlə müqayisədə artıb. Belə ki, 28 min 249 ton taxıl, 10 min 2 ton kartof, 19 min 597 ton tərəvəz, 5 min 266 ton bostan məhsulları, 1540 ton paxlalı, 2473,5 ton qarğıdalı, 79,5 ton günəbaxan istehsal olunub. Bağlardan 16 min 218 ton meyvə, 1318 ton üzüm yığılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Kəngərli Rayon İcra Hakimiyyətində də 2014-cü ildə görülən işlərin müzakirəsinə və bu il qarşıya qoyulmuş vəzifələrin icrasına həsr olunmuş müşavirə keçirilib.***



Yığıncağı rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, Kəngərli rayonu üçün 2014-cü ilin ən əlamətdar hadisəsi ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Kəngərli rayonunda Mərkəzi Xəstəxananın açılış mərasimində iştirak etməsi olub.

Ötən il Kəngərli rayonundakı "N" hərbi hissədə Təlim-Tədris Mərkəzi, Qarabağlar kəndində xidmət mərkəzi və 648 şagird yerlik 1 nömrəli tam orta məktəb istifadəyə verilib.

Rayonda özəl sektorun inkişafı istiqamətində görülən işlərdən də bəhs edən Ramiz Cəfərov qeyd edib ki, hesabat dövründə Xok kəndində unlu-qənnadı məmulatların istehsalı və satışı, Qabıllı kəndində alkoqolsuz içkilər və çörək istehsalı, Böyükdüz kəndində pendir istehsalı, istixana kompleksi və tərəvəz məhsullarının qablaşdırılması sahələri, Xok kəndində heyvandarlıq təsərrüfatı yaradılıb.

"Kənd təsərrüfatının inkişafı üçün də lazımi imkanlardan istifadə edilib", – deyən icra başçısı bildirib ki, 2014-cü ildə 5984 hektar ərazidə əkin həyata keçirilib; bunun 4277 hektarını taxıl məhsulları, 1707 hektarını isə digər kənd təsərrüfatı məhsulları təşkil edib.

Vurğulanıb ki, ötən il rayonun Xok kəndində 100 kva, Qarabağlar kəndində 250 kva gücündə yeni transformator yarımstansiyaları quraşdırılıb, 8 kilometr uzunluqda 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilib. Rayon ərazisindəki "Qıvraq" yarımstansiyasında tikinti-quraşdırma işləri davam etdirilib. Rabitə sahəsində də bir sıra işlər görülüb. Belə ki, Qıvraq qəsəbəsində 160 nömrə tutumlu yeni avtomat telefon stansiyası quraşdırılıb.

2014-cü ildə Kəngərli rayonunda yol infrastrukturunun yenilənməsi və bu sahədə görülən işlərin ardıcıl xarakter alması diqqət mərkəzində saxlanılıb, Qarabağlar kəndində 3,1 kilometr daxili avtomobil yolu yenidən qurularaq asfalt örtük salınıb, 908 metr suötürücü kanal tikilib, 3 körpü təmir olunub.

Ötən il 237 nəfər işlə təmin olunub, 20 nəfər peşə hazırlığına cəlb edilib, 22 nəfər ictimai işlərə, 9 nəfər kvota yerlərinə göndərilib.

2013-2014-cü tədris ilində məktəblərdən məzun olmuş 333 nəfərdən 102-si ali məktəblərə, 17 nəfər orta ixtisas məktəblərinə, 31 nəfər isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub. Ali məktəblərə qəbul olanlardan 14 nəfər 500-700 intervalında bal toplayıb.

Ötən il müşahidə olunan nöqsan və çatışmazlıqlardan da danışan icra başçısı 2015-ci ildə həmin nöqsanlara yol verilməməsi üçün əməli tədbirlərin görülməsinin vacibliyini bildirib. Vurğulanıb ki, 2015-ci il "Kənd təsərrüfatı ili" elan olunub. Əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunması, kənd təsərrüfatının inkişafı, hər il olduğu kimi, bu il də diqqət mərkəzində saxlanılacaq.

Sonra məruzə ətrafında Kəngərli Rayon Maliyyə Şöbəsinin müdiri Hacıəddin Mehbalıyevin, Statistika İdarəsinin rəisi Tahir Məmmədovun çıxışları olub.

**Xəbərlər şöbəsi**

## Gənc əsgərlər Vətənə sədaqət andı içiblər

***Fevralın 15-də Əlahiddə Ümumqoşun Ordusunun "N" hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Əvvəlcə hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib, sonra gənc əsgərlərin andiçmə mərasimi başlanıb.***



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mənsum Əhmədov çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılan hər bir vətəndaş döyüş bayrağı altında əlində silah dayanaraq Vətənə, öz xalqına sədaqətli olacağı barədə təntənəli surətdə and içir. Hərbi anda sadiq olmaq hər bir əsgər üçün şərəf və vicdan borcudur. Buna görədir ki, Azərbaycan əsgərinin malik olduğu keyfiyyətlər düşmənlərimizə qorxu, xalqımıza isə sevinc və qürur bəxş edir.

Əsgər Alı Tağıyev hərbi and içən əsgərlər adından çıxış edərək Vətənə sədaqətlə xidmət edəcəklərinə, verilən əmr və tapşırıqları vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Valideyn Nəzifə Əsədova bu günün onlarda böyük qürur hissi doğurduğunu bildirib, Vətənin müdafiəçilərinə uğurlar arzulayıb.

Əlahiddə Ümumqoşun Ordusu komandanının müavini, general-mayor Vasif Kazımov başı üzərində üçrəngli bayrağın dalğalandığı bu xalqın mərd övladları ilə hər zaman fəxr edəcəklərini söyləyib.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında da gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Gənc əsgərlər əsgəri borclarına şərəflə əməl edəcəklərinə and içiblər.

Alay komandiri, polkovnik İspəndiyar Əhmədov gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıb.

Andiçmə mərasimində alayın zabitlərindən kapitan Kənan İmanovun, baş leytenant Ramil Quliyevin, əsgər Məmməd Cəlilovun, gənc əsgər Saməddin Vəlizadənin, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublikası Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərovun, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanovun çıxışları olub.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasında Silahlı Qüvvələrimizin rolundan danışıb və gənc əsgərlərə xoş arzularını çatdırıb.

Sonda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, alayın şəxsi heyətinin tribuna önündən təntənəli keçidi olub.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 148